RESPUBLİKA 17 aprel 2019-cu il

# Alimin şəxsi kolleksiyasının təqdimatı keçirilib

**AMEA Mərkəzi Elmi Kitabxananın İctimaiyyətlə əlaqələr bölməsindən bildiriblər ki, Azərbaycanın görkəmli dilçi alimi, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru, professor Əlövsət Abdullayevin şəxsi kitab kolleksiyasının təqdimatı keçirilib. Təqdimat mərasimində alimin müasirləri, tələbələri, ailə üzvləri və media nümayəndələri iştirak ediblər.**

Tədbirdə çıxış edən MEK-in Kitabxana-xidmət şöbəsinin əməkdaşı Səda Əliyeva alimin şəxsi kitab kolleksiyası, həyat və fəaliyyəti haqqında ətraflı məlumat verərək qeyd etdi ki, professor Əlövsət Abdullayev Azərbaycan dilinin ən aktual problemləri üzrə 140-dan çox əsərin, o cümlədən 15-dən artıq tədris ədəbiyyatı və monoqrafiyanın müəllifidir.

Kolleksiya MEK-ə, alimin qızı, filologiya elmləri doktoru, BDU-nun Azərbaycan dilçiliyi kafedrasının müdiri Sənubər Abdullayeva tərəfindən təqdim edilib. Professor Əlövsət Abdullayevin müəllifi olduğu əsərlərlə yanaşı, dilçilik elminin bütün bölmələrinə aid kitablar, müxtəlif dillərdə olan lüğətlər, ensiklopediyalar, digər sənədlər və alimin "Köməkçi nitq hissələri" metodik vəsaiti, "Müasir Azərbaycan dili. Sintaksis" dərsliyi, "Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr" monoqrafiyası, "Dil, Siyasət, Sosial tərəqqi", "Sintaksisin aktual məsələləri", "Azərbaycan dili məsələləri" və s. kitabları və Azərbaycan dilçiliyinə əsərləri MEK-in Milli Rəqəmsal Yaddaş bazasına daxil edilib.

Daha sonra professor Əlövsət Abdullayevin qardaşı, professor Əlikram Abdullayev, qızı Sənubər Abdullayeva, oğlu Tofiq Abdullayev, dilçi alimin tələbəsi olmuş BDU-nun dosenti İsmayıl Məmmədov, professorlar Tofiq Hacıyev, Rəhilə Quliyeva, Fikrət Əlizadə və digər qonaqlar çıxış edərək, alimin həyatı və yaradıcılığı ilə bağlı xatirələrini bölüşüb və onu Azərbaycanda dilçi alimlərin yetişməsində xidməti olmuş şəxsiyyət kimi xarakterizə ediblər.

**Kamil İSMAYILOV,**
**"Respublika".**